Allahın adı ilə nəşrinə başladığımız bu qəzetə "Say" adını təsadüfən qoymamışıq. Say hər şeydən əvvəl ədəd, rəqəm deməkdir. İndiyədək qədrini bilmədiyimiz, heç vaxt özümüzün olmayan milli sərvətlərimizin, qorxudan hamıdan gizlətdiyimiz şəxsi əmlakımızın - birdən bilərlər ki, babat yaşayırıq, adımıza oğru deyərlər - ölçü vahididir say. Bəli, əziz oxucu, bütün mədəni ölkələrdə insanın ləyaqət göstəricilərindən biri olan maddi zənginlik bizdə 70 ildən çoxdur ki, haram həyat tərzi, əliəyrilik, bir çox hallarda isə hətta namussuzluq kimi qiymətləndirilir. Çünki hökümət yaxşı bilir ki, nə cür zəhmət çəkirsənçək, əvəzində verdiyi maaşla heç kəs zəngin ola bilməz. Deməli, zənginsənsə - oğrusan! Bu olub bizim psixologiyamız.

Say həm də kəmiyyət deməkdir. Min bir zəhmətlə yaratdığımız, ən cüzi bir hissəsi də xalqımızın ən zəruri ehtiyacına belə ödənilməyən maddi və mənəvi istehsal məhsullarının məcmusudur say. Bu kəmiyyət haqqında təsəvvür əldə etmək üçün Bakıda 1920-ci il aprelin 28-dək üst-üstə cəmi 10-15 ilə ucaldılmış, dünyanın bütün arxitektura üslublarının ən gözəl nümunələri olan imarətlərlə sonrakı 70 il ərzində bir-birinin üzərinə qalaqlanmış daş yığınından ibarət "kibrit qutuları"nın müqayisəsi kifayətdir.

Say həm də hesab deməkdir. Bu elə bir əməliyyatdır ki, nəticədə verdiyinlə aldığın arasındakı fərq məlum olur. Elə buna görə də dünyanın ən ağır, hətta cəhənnəm əzabı tək dözülməz zəhmətləri belinə yükləmiş sadəlövh xalqıma bu sadə hesab əməliyyatını həyata keçirməyi heç vaxt "qıymayıblar".

# "SAY"LI DÜŞÜNCƏLƏR

*Qəzetin ilk sayına baş redaktor şərhi*

Biz sayı bilmədiyimizdən, sayılmadığımızdan bu günə düşməmişikmi?! Naxələf qonşularımızın tarix boyu öz süfrəmizdə oturub isti aşımıza soyuq su qatmaları, üzümüzə gülüb kürəyimizə namərdcəsinə bıçaq yarası vurmaları bəlkə saya gəlmir deyə, saymırıq?!

Hər şeyin sayı var və hər şey sayılmalıdır. Ayrı-ayrı bayrağı, gerbi, himni olan iki (kağız üzərində olsa da) müstəqil dövlət arasında 4 ildən bəri gedən faktiki müharibəyə gah "vətəndaş müharibəsi", gah "elan edilməmiş müharibə" adı verib başımızın altına yastıq qoyan düşmən fikirlərini nə vaxtadək saymayacağıq?! Nə vaxtadək yatacağıq, ilahi? Axı yuxunun da bir həddi var və bu həddin özü də sayla ölçülür.

Düşmənlərimiz sayı yaxşı bilirlər. Hər gün doğulan türk övladlarının sayı onların gözünə ox kimi batır, bədxahlarımızın ürəyini lərzəyə salır. Islam dünyasının coğrafiyası genişləndikcə, islam "dövlətlərinin sayı artdıqca "dənizdən-dənizədək" bir ərazidə "böyük dövlət" yaratmaq istəyən cılızların mənhus niyyəti günəşin hərarətinə tab gətirməyən buz kimi əriyib, bədniyyətlərin özlərini içəridən boğur.

Onlar yaxşı bilirlər ki, bu gün biz Azərbaycanın müstəqilliyini rəsmən tanıyan ölkələrin sayı ilə fəxr ediriksə, sabah "Azərbaycan bizi tanıyıb" - deyə sevinən ölkələr olacaq və bu ölkələr də biznən olacaq. Çünki bizim bildiyimiz say da var.

Say - hörmət, ehtiram et! Böyüyü say, müdriki say, ağsaqqalı say! Haqqı say, ədaləti say, halallığı say! Bütün dünya - bir çoxları etiraf etməsələr də yaxşı bilir ki, biz bu sayı nə cür sayırıq.

Bu gün, Azərbaycanın azadlığını və istiqlaliyyətinin bərpa etdiyimiz bir vaxtda, dünyanın inkişaf etmiş demokratik dövlətləri sırasına qoşulmaq, hüquqi dövlət yaratmaq istədiyimiz bir vaxtda "say" sözünü bütün mənalarda dilimizin əzbəri etməliyik.

Say - gör vətənin torpağında, havasında, suyunda nələr var və bu nemətlər hara gedir?!

Say - gör xalqın nələr yaradır və əvəzində nə alır?!

Say - "dostunam" deyəni və sənə dost olanı tanı!

Say - zəhmət çək, ağıl işlət, güc sərf et, səriştə göstər, qazan və qazandığını say! Pul say və indən belə pulu say!

Quran ayəsidir - buyurur ki, (bismillahir-rəhmanir-rəhim)...vəcədəkə zalən fəhəda, və vəcədəkəəailən fəqna (sədəq-əllah-ul-əzim) - yəni, ...yol axtaran bir adam kimi səni tapıb sənə yol göstərmədimi (Allah)? Və səni yoxsul tapıb da sənə zənginlik vermədimi?!

Sayılanların ən şərəflisi haqqında deyilmiş bu mübarək ayələr bizim hamımız üçün ibrət olmalıdır.

Bil ki, sayan sayılar və sayarsan - sayılarsan!

***Rafiq ƏLİYEV,***
***"Say" qəzetinin baş redaktoru***